Prioritet
Sosial İqtisadi Araşdırmalar Mərkəzi İB

# İctimai Şura üzvləri arasında sorğu

# Nəticələr və tövsiyyələr

**Bakı 2024**

Bu sorğu "Prioritet" Sosial-İqtisadi Araşdırmalar Mərkəzi İB tərəfindən icra olunan "Qərarların qəbulunda ictimai iştirakçılığın genişləndirilməsi" layihəsi çərçivəsində keçirilib.

Layihənin məqsədi mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılmış İctimai Şuraların bilik və bacarıqlarının artırılması, institusional inkişafına dəstək verilməsi və ictimaiyyətlə əlaqələrinin inkişaf etdirilməsiylə qərarların qəbulunda ictimai iştirakçılığın gücləndirilməsidir.

Sorğu İctimai Şuraların **İctimai Şuraların üzləşdikləri mövcud çətinliklərin öyrənilməsi, ehtuyacların qiymətləndirilməsi, İctimai Şuraların fəaliyyəti üçün əlverişli mühit yaradılması üçün təkliflərin hazırlanması məqsədilə** İctimai Şura üzvləri arasında onlyan formatda (Google Forms alətinin köməyi ilə) 2024-cü il 02-14 yanvar tarixlərində keçirilib. Sorğuda 35 İctimai Şura üzvü olan QHT təmsilçiləri iştirak edib.

® Prioritet" Sosial-İqtisadi Araşdırmalar Mərkəzi İB
Azərbaycan, Bakı
Balababa Məcidov küç. 51
Mob: (055) 2669770
E-mail: prioritetsiam@gmail.com
FB: https://www.facebook.com/profile.php?id=100089628596836

## XÜLASƏ

Sorğuda  11 İctimai Şurada təmsil olunan 35 İctimai Şura üzvü iştirak edib.

Sorğu İctimai Şuraların üzləşdikləri mövcud çətinliklərin öyrənilməsi, ehtiyacların qiymətləndirilməsi, İctimai Şuraların fəaliyyəti üçün əlverişli mühit yaradılması üçün təkliflərin hazırlanması məqsədilə İctimai Şura üzvləri arasında onlyan formatda (Google Forms aləti ilə)  2024-cü il 02-14 yanvar tarixlərində keçirilib.

İctimai Şura üzvləri fərdi olaraq ictimai iştirakçılıqla bağlı vəziyyəti qənaətbəxş saysalar da, (ümumilikdə rəyi soruşulanların 80%),  bu onların daha çox Şura üzvü kimi özünüqiymətləndirməsi kimi çıxış edir. **Belə ki, digər sualı cavablandırarkən respondentlərin 57.1% hesab edir ki, İŞ-lər formal fəaliyyət göstərirlər. 45.7% düşünür ki, peşəkarlıq aşağıdır. 37.1% qeyd edir ki, dövlət  orqanlarının qurumu kimi fəaliyyət göstərirlər, 22.9% isə hesab edir ki, hesabatlı deyillər.**

Eyni zamanda rəyi soruşulanların 70% İŞ üzvlərinin ictimai iştirakçılıq sahəsində bilik və bacarığını yüksək qiymətləndirir. Bu daha çox İŞ üzvlərinin özlərinin fərdi fəaliyyətini əsas tutaraq qiymətləndirməsi qənaətini yaradır. Çünki, **"İctimai iştirakçılıqla bağlı hansı problemləri müşahidə edirsiniz?" – sulaına cavabda rəyi soruşulanların dövlət orqanlarının formal yanaşması (82.9%),  qanunvericlikdə boşluqların olması (62.9%) ilə yanaşı əsas çətinliklərdən biri kimi, QHT-lərin bilik və bacarıqları, təcrübəsinin az olmasını (57.51%) bildiriblər.**

Bununla yanaşı rəyi soruşulanların  **25.7% peşəkar üzvlərin seçilməsi üçün yeni qaydaların** tətbiqini vacib sayıb.

Diqqət çəkən məqamlardan biri kimi, rəyi soruşulanların **40% İŞ-lərin fəaliyyətinin gücləndirilməsinin vacibliyini qeyd etməsidir.**

İŞ-in fəaliyyətinin gücləndirilməsi üçün **14.3% isə təlim dəstəyi verilməsini** məqsədəuyğun hesab edir.

Bu cavabların təhlili göstərir ki, İŞ-in fəaliyyətini ümumi şəkildə dəyərləndirən zaman "qənaətbəxş hesab edirəm" cavabını verənlər daha çox özlərinin fəaliyyətini əsas tutaraq müsbət cavab veriblər.

İctimai Şuraların ictimai iştirakçılığın hansı formalarından istifadə etməsi ilə məlumatlar diqqətçəkəndir. **Respondentlərin cavablarına əsasən İŞ-lər  əsas etibarı ilə ictimai müzakirələr, dəyirmi masa müzakirələrinin təşkili, vətəndaş müraciətlərinin araşdırılması, monitorinqlər keçirilməsi, təklif və tövsiyyələrin verilməsi sahəsində fəaldırlar.** Araşdırmalar və hesabatlar hazırlanması, göstərilən xidmətlərin səviyyəsinin ölçülməsi, informasiya açıqlığının qiymətləndirilməsi, vətəndaş məmnunluğunun ölçülməsi, bilavasitə yerində müşahidə və təkliflər, hesabatlar hazırlanması, dövlət orqanlarının

saytlarının monitoriniqi, tədqiqatların aparılması ilə əlaqədar fəaliyyətlər demək olar ki, yox səviyyəsindədir.

**İctimai Şuraların fəaliyyəti ilə əlaqədar daha iki ciddi problem dövlət orqanlarının formal yanaşması** (respondetlərin 82% belə hesab edir) və əhalinin İctimai Şuralar haqqında az məlumatlı olmasıdır. Rəyi soruşulanların **74.3% vətəndaşların, 80% isə dövlət orqanlarının ictimai iştirakçılıqla bağlı məlumatlılıq səviyyəsinin aşağı** olduğunu düşünür.

## SORĞUNUN NƏTİCƏLƏRİ

Sorğuda 11 İctimai Şurada təmsil olunan 35 İctimai Şura üzvü iştirak edib.

Sorğu İctimai Şuraların İctimai Şuraların üzləşdikləri mövcud çətinliklərin öyrənilməsi, ehtuyacların qiymətləndirilməsi, İctimai Şuraların fəaliyyəti üçün əlverişli mühit yaradılması üçün təkliflərin hazırlanması məqsədilə İctimai Şura üzvləri arasında onlyan formatda (Google Forms alətin ilə) 2024-cü il 02-14 yanvar tarixlərində keçirilib.

1. Azərbaycanda ictimai iştirakçılıqla bağlı mövcud vəziyyəti necə qiymətləndirirsiniz? – sualını cavablandıran respondentlərin 80% müsbət fikir bildirib. 20% isə hesab edir ki, vəziyyət qeyri-qənaətbəxşdir?




2. Respondentlərin yalnız 20% hesab edir ki, İŞ üzvlərinin bilik və bacarığını yaxşı qiymətləndirmək olar, 40% düşünür ki, qənaətbəxşdir, 40% isə hesab edir ki, qeyri-qənatbəxşdir.



3. Respondentlərin 65,7%  hesab edir ki, dövlət orqanları ictimai iştirakçılığa  formal yanaşırlar, 11.4% düşünür ki, maraq göstmirlər. Yalnız 22, 9% hesab edirlər ki, maraq göstərirlər.




4. Respondentlərin 74.3%  düşüünr ki, vətəndaşların ictimai iştirakçılıqla bağlı məlumatlılıq səviyyəsi aşağıdır. 20% düşünür ki, müəyyən qədər məlumatlıdır.



5. **Respondentlərin 80.6% düşünür ki, dövlət orqanlarının məlumatlılıq səviyyəsi aşağıdır. 11.4% isə hesab edir ki, çox məlumatlıdırlar.**




6. **Respondentlərin 34.3% İctimai Şuraların işini qeyri-qənatbəxş hesab edir. 65.7% isə ümumilikdə müsbət qiymətləndirir.**



7. **<u>Respondetlərin 31.4% İŞ üzvlərinin ictimai iştirakçılıq və ictimai nəzarət sahəsində peşəkarlığını qeyri-qənatbəxş qiymətləndirib.</u>**




8. **<u>Respondentlərin ümumilikdə 74.3% hesab edir ki, İŞ-lərin ictimaiyyətlə əlaqələr sahəsində bilik və bacarıqları qənatbəxş səviyyədədir.</u>**



**9.** Respondentlərə görə ictimai iştirakçılıqla bağlı əsas müşahidə olunan problemlər dövlət orqanlarının formal yanaşması (82.9%), qanunvericiklədə boşluqların olması (62.9%), QHT-lərin bilik və bacarıqları, təcrübəsinin az olmasıdır (57.51%)



10. Respondentlərin 57.1% hesab edir ki, İŞ-lər formal fəaliyyət göstərirlər. 45.7% düşüünr ki, peşəkarlıq aşağıdır. 37.1; qeid edir ki, dövlət orqanlarının qurumu kimi fəaliyyət göstərirlər, 22.9% isə hesab edir ki, hesabatlı deyillər.




11. Respondentlərin cavablarına əsasən İŞ-lər əsas etibarı ilə ictimai müzakirələr, dəyirmi masa müzakirələrinin təşkili, vətəndaş müraciətlərinin araşdırılması, monitorinqlr keçirilməsi, təklif və tövsiyyələrin verilməsi sahəsində fəaldırlar.

| B4. Son iki ildə üzvü olduğunuz İŞ ictimai iştirakçılığın hansı formalarından istifadə edib? (Uyğun variantları seçin) | Say | % |
|---|---|---|
| İctimai müzakirələr | 13 | 37.1 |
| Vətəndaş müraciətlərinin araşdırılması | 13 | 37.1 |
| Monitorinqlər keçirilməsi | 11 | 31.4 |
| Dəyirmi masa müzakirələri | 8 | 22.9 |
| Təkliflər və tövsiyyələr verilməsi | 8 | 22.9 |
| İctimai rəyin öyrənilməsi | 4 | 11.4 |
| Araşdırmalar və hesabatlar hazırlanması | 2 | 5.7 |
| Göstərilən xidmətlərin səviyyəsinin ölçülməsi | 2 | 5.7 |
| İnformasiya açıqlığının qiymətləndirilməsi | 2 | 5.7 |
| Vətəndaş məmnunluğunun ölçülməsi | 2 | 5.7 |
| Bilavasitə yerində müşahidə və təkliflər, hesabatlar hazırlanması | 1 | 2.9 |
| Dövlət orqanlarının saytlarının monitoriniqi | 1 | 2.9 |

| | | |
|---|---|---|
| Miqrantların reinteqrasiyası ilə bağlı tədbirlər | 1 | 2.9 |
| Tədqiqatların aparılması | 1 | 2.9 |
| Digər | 2 | 5.7 |
| Cəmi | 69 | |

**12. Respondentlərin 40% İŞ-lərin fəaliyyətinin gücləndirilməsi üçün İŞ-in müstəqilliyinin gücləndirilməsini, 25.7% peşəkar üzvlərin seçilməsi üçün yeni qaydaların tətbiqini, 22.9% isə qanunverilciyin təkmilləşdirilməsini vacib sayır. 14.3% isə təlim dəstəyi verilməsini məqsədəuyğun hesab edir.**

| **B12. Ümumiyyətlə götürsək, İctimai Şuraların fəaliyyətinin gücləndirilməsi üçün hansı tədbirləri zəruri hesab edirsiniz? (Ən vacib hesab etdiyiniz iki cavabı seçin)** | **Say** | **%** |
|---|---|---|
| Dövlət orqanlarının müdaxiləsinn qarşısının alınması | 4 | 11.4 |
| İctimai Şuraların maddi təminatının gücləndirilməsi | 9 | 25.7 |
| İctimai Şuraların müstəqilliyinin gücləndirilməsi | 14 | 40.0 |
| Peşəkar üzvlərin seçilməsi üçün yeni qaydalar tətbiq edilməsi | 9 | 25.7 |
| Qanunvericiliyin təkmilləşdirilməsi | 8 | 22.9 |
| Təlim dəstəyi | 5 | 14.3 |
| **Cəmi** | **49** | |

## Tövsiyyələr

İctimai iştirakçılığı tənzimləyən qanunvericiliyin yenidən nəzərdən keçirilməsi və İctimai Şuraların müstəqilliyini gücləndirəcək, eyni zamanda dövlət orqanlarının müdaxiləsini məhdudlaşdıracaq addımlar atılması.

İctimai Şuraların institusional əsaslarını möhkəmləndirəcək hüquqi əsasların inkişaf etdirilməsi.

İctimai Şuraların peşəkar əsaslarla formalaşmasını təmin etmək üçün müvafiq qaydaların hazırlanması və tətbiqi, mövcud normativ bazanının bu xüsusda təkmilləşdirilməsi

İctimai Şuraların şəffaf idarə olunması, onların hesabatlılığının artırılması üçün daxili qaydaların işlənilməsi öhdəliyinin gücləndirilməsi

İctimai Şuraların fəaliyyətinin maddi-texniki əsaslarının gücləndirilməsi üçün hüquqi imkanların yaradılması

İctimai Şuralar üçün QHT-lərə Dövlət Dəstəyi Agentliyi tərəfindən mütəmadi təlim kursunun təşkili

Dövlət orqanlarının İctimai Şuralara ictimaiyyətlə əlaqələr sahəsində dəstək verməsi öhdəliyinin müəyyən olunması

Dövlət orqanları üçün ictimai iştirakçılıq sahəsində məlumatlılığın artması məqsədilə mütəmadi təlim kursunun təşkili

Bu vaxta qədər əldə edilmiş təcrübəni nəzərə almaqla İctimai Şuranın hüquq və vəzifələri, fəaliyyəti dairəsi ilə bağlı məsələlərə yenidən baxılması və qanunvericiliyin təkmilləşdirilməsi

Dövlət orqanlarının İŞ-lərin fəaliyyətinə müdaxiləsinin qarşısının alınması məqsədilə mövcud hüquqi təminatlar təkmilləşdirilməlidir.

İctimai Şuralarda qadınların və gənclərin təmsilçiliyinin artırılması, onların səlahiyyətləndirilməsi üçün məlumatlandırma, maarifləndirmə və təlim dəstəyinin verilməsi sahəsində əlavə səylər göstərilməsi